

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

7 noyabr 2025-ci il
Cümə

1933-cü ildən çıxır
№ 43 (3755)

# Elm strateji dayağımızdır

**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən təntənəli tədbir Azərbaycanın dövlətçilik tarixi üçün də mühüm səhifə oldu. Prezident İlham Əliyevin yubiley mərasimində etdiyi çıxış təkcə elmi nailiyyətlərin təqdiri deyil, həm də gələcəyə yönəlmiş dərin strateji baxışın ifadəsi idi.**



Dövlətimizin başçısı əvvəlcə Rəyasət Heyətinin üzvləri və xarici qonaqlarla görüşərək AMEA-nın ölkənin elmi, intellektual və mədəni həyatında mühüm rol oynadığını bildirib. Prezident vurğulayıb ki, Akademiya elm və cəmiyyət arasında körpü rolunu oynayıb və ölkənin inkişaf xəttində mühüm mənbə kimi çıxış edib.

Çıxışında İlham Əliyev AMEA-nın keçdiyi tarixi yola toxunub. Dövlət başçısı qeyd edib ki, ötən 80 il ərzində Akademiya yalnız elmi araşdırmalar aparmayıb, həm də yeni elmi məktəblər formalaşdırıb, müxtəlif sahələrdə ixtisaslaşmış kadrların yetişdirilməsində aparıcı rol oynayıb. Ulu Öndər Heydər Əliyevin ötən əsrin 70-ci illərində elmə yönəltdiyi strateji dəstək Azərbaycanın intellektual potensialını gücləndirib və bu xətt müstəqillik dövründə də davam etdirilib. Akademiyanın maddi-texniki bazası yenilənib, yeni tədqiqat imkanları yaradılıb, elmi fəaliyyətin keyfiyyətinin artırılması üçün hüquqi və maliyyə mexanizmləri formalaşdırılıb.

*"Elmə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir"*

Prezident deyib: "Elmin inkişafı dayanıqlı inkişafımızın əsasıdır. Təbii resurslar tükənə bilər, lakin intellektual potensial tükənmir, əksinə artdıqca ölkənin gücü də artır. Elmə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir."

## Prezidentin çıxışı gələcək hədəflərimizə yönəlib

Dövlət başçısı hazırkı dövrün reallıqlarına da diqqət çəkib. Bildirib ki, bu gün dünyada gedən proseslər göstərib ki, ölkələrin gücü artıq yalnız iqtisadi və hərbi imkanlarla ölçülmür. Süni intellekt, rəqəmsallaşma, kibertəhlükəsizlik, yüksək texnologiyalı sənaye və innovasiya cəmiyyətlərin yeni inkişaf mərhələsini müəyyənləşdirib.

Prezident alimləri məhz bu sahələrdə daha fəal olmağa, elmi nəticələrin praktiki tətbiqini genişləndirməyə səsləyib.

Bununla yanaşı, ölkə rəhbəri Azərbaycan iqtisadiyyatının sabit və davamlı inkişafının elmi layihələrin icrası üçün əlverişli şərait yaratdığını vurğulayıb. Xarici borcun çox aşağı səviyyədə olması, valyuta ehtiyatlarının sistemli şəkildə artması və qeyri-neft sektorunda genişlənmə elmi proqramların maliyyələşdirilməsini dayanıqlı edib. Bu isə həm fundamental, həm də tətbiqi elmin inkişafını stimullaşdırıb.

Prezident çıxışında Azərbaycan tarixinin elmi əsaslarla araşdırılması və beynəlxalq müstəvidə təbliğinin də əhəmiyyətini qeyd edib.

Bildirib ki, tarixi həqiqətlərin qorunması və elmi şəkildə təqdim olunması milli kimliyin dayaqlarından biridir və bu istiqamətdə Azərbaycan alimləri öz sözünü ardıcıl deməlidir.

Nitqin əsas hissələrindən biri Azərbaycan dilinə həsr olunub. Prezident vurğulayıb:

"Azərbaycan dili bizim kimliyimizdir. Dilimizi qorumasaq, milli düşüncəmiz zəifləyər. Ədəbi dilimizin saflığı qorunmalı, təbliğ olunmalıdır."

Dövlət başçısı dilçilik sahəsində elmi araşdırmaların gücləndirilməsinin, ədəbi dil normalarının mediada və təhsil prosesində daha ardıcıl tətbiqinin vacib olduğunu bildirib.

Prezident alimləri həm dil, həm tarix, həm də texnoloji inkişaf xəttində daha fəal olmağa çağırıb.

# Daxili İşlər Nazirliyinin şəxsi heyətinə



***Əziz həmkarlar!***

Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə Sizi, hörmətli veteranlarımızı, şəhid olmuş hərbi qulluqçuların və polis əməkdaşlarının ailə üzvlərini səmimi qəlbdən təbrik edir, ən xoş diləklərimi çatdırıram.

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən torpaqları uğrunda döyüşə başlayan rəşadətli Ordumuzun, o cümlədən Daxili Qoşunların fədakar xidmətləri nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunaraq Qarabağ və Şərqi Zəngəzur torpaqları işğaldan azad edilmiş, Zəfər bayrağı doğma yurdumuzda yenidən ucaldılmışdır. Əsgər və zabitlərimiz Murov Zirvəsi, Cəbrayıl, Hadrut, Füzuli və Şuşa uğrunda gedən döyüşlərdə şücaəti, igidliyi və qəhrəmanlığı ilə xüsusilə fərqlənmiş, xalqımızın və onun ayrılmaz hissəsi olan Daxili İşlər Nazirliyinin şanlı tarixinə yeni qürur səhifələri yazmışlar.

Daxili Qoşunların şəxsi heyəti 2023-cü ildə keçirilmiş antiterror əməliyyatında da yüksək döyüş hazırlığı, peşəkarlıq və dövlətə sədaqət nümunəsi göstərmiş, Ali Baş Komandanın bütün əmrlərini məsuliyyətlə və layiqincə icra etmişdir.

Əminəm ki, öz andına həmişə sadiq qalan, qanunçuluğun və hüquq qaydasının keşiyində ayıq-sayıq dayanan, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə asayişi və təhlükəsizliyi mərdliklə qoruyan şəxsi heyətimiz bundan sonra da Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının etimadını doğruldacaqdır.

Xalqa və dövlətə sədaqətli xidmətə görə hər birinizə təşəkkür edir, möhkəm cansağlığı, ailə səadəti, şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram!

**Vilayət Eyvazov**
**Azərbaycan Respublikasının daxili işlər naziri**
**general-polkovnik**

## Qürur və fəxarət günü

### Bakı möhtəşəm hərbi parada hazırdır

"Azadlıq meydanında hərbi paradın keçirilməsi böyük hadisədir, qürurverici hadisədir. Azərbaycan xalqı bu Şanlı Zəfərlə bundan sonra əbədi fəxr edəcək". Bu fikirləri Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında çıxışı zamanı səsləndirib.

## Münasibətlərimiz genişlənir

### Dövlətimizin başçısı senatın sədrini qəbul edib

Prezident İlham Əliyevin Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudeanı qəbulu zamanı Azərbaycan və Ermənistan arasında sülh prosesində əldə olunan irəliləyişi yüksək qiymətləndirilib. Görüşdə həmçinin parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, enerji və regional nəqliyyat layihələri müzakirə olunub.

## İki ölkənin əlaqələri möhkəmlənir

### Strateji tərəfdaşlıq uğurla inkişaf edir

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının sədri Saqr Qobaş ilə görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın uğurla inkişaf etdiyini qeyd edib. Qonaq Azərbaycan Konstitusiyasının 30 illiyi münasibətilə keçirilən beynəlxalq konfransın yüksək səviyyəsini vurğulayıb. Görüşdə Azərbaycanın regionda sülh təşəbbüsləri, nəqliyyat əlaqələrinin genişləndirilməsi və bərpaolunan enerji layihələrində əməkdaşlıq məsələləri müzakirə olunub.

## Qarabağ layihələri dəstəklənir

### Prezident dəstəyə görə təşəkkür edib

Prezident İlham Əliyev Ərəb Koordinasiya Qrupunun rəhbər şəxslərini qəbul edərək Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işlərinə verilən dəstəyə görə təşəkkür edib. Görüşdə sosial infrastruktur, investisiya və biznes mühitinin inkişafı müzakirə olunub. Qonaqlar Şuşada aparılan quruculuq işlərindən təsirləndiklərini bildiriblər.

## Fərman və sərəncamlar

*Azərbaycan elminin inkişafında xidmətləri olan şəxslər təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev noyabrın 5-də Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev noyabrın 5-də Bakı Metropoliteni əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev noyabrın 4-də "Məhkəmə Ekspertizası" informasiya sisteminin yaradılması haqqında Fərman imzalayıb.*

Nazir vətəndaşları dinləyib....................2
Zəfərin 5 ili............................................2
Şuşadan haqqın dərgahına....................3
Tarixin axarını dəyişən agent................4

# Respublika Xəbərləri

### Diplomatların səfəri

Azərbaycan Prezidentinin tapşırığına əsasən, 51 ölkə və 12 beynəlxalq təşkilatın 100-dən çox nümayəndəsi Cəbrayıl və Zəngilana səfər edib. Bu, diplomatik korpusun azad edilmiş ərazilərə 20-ci səfəridir. Qonaqlara regionda aparılan bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verilib.

### Büdcə gəlir və xərcləri açıqlanıb

Milli Məclisin komitəsinin iclasında müzakirəyə çıxarılan “2026-cı il dövlət büdcəsi haqqında” Qanun layihəsinə əsasən, gələn ilin dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat, xərcləri 41 milyard 703,6 milyon manat məbləğində təsdiqlənib. Büdcə xərclərinin yuxarı həddinin məbləği 48 milyard 839 milyon 322,6 min manat müəyyən edilib.

### Oyunun təhlükəsizliyi təmin edilib

“Qarabağ”–“Çelsi” matçı zamanı təhlükəsizlik polis əməkdaşları tərəfindən tam təmin edilib. Polis əməkdaşları fasiləsiz xidmət aparıb, azarkeşlər detektorlarla yoxlanılıb, qadağan olunmuş əşyalar stadiona buraxılmayıb. Oyun ərzində ictimai asayişin qorunması məqsədilə gücləndirilmiş rejim tətbiq olunub.

### Pensiyanın məbləği dəyişəcək

Gələn ildə orta pensiya məbləğinin 579,2 manat təşkil edəcəyi proqnozlaşdırılır. Bu, gələn ilin dövlət büdcəsi haqqında qanun layihəsində öz əksini tapıb. Layihəyə əsasən, bu məbləğ 2025-ci ildə gözlənilən 537 manatdan 7,9 faiz çoxdur.

### Sosial maarifləndirmə aparılır

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Ağdamda və Zəngilanda köçkünlər üçün sosial müdafiə və mina təhlükəsi mövzusunda tədbir keçirib. Videoçarxlar nümayiş etdirilib, vahid aylıq müavinət qaydaları izah olunub. Məqsəd sakinlərin məlumatlılığını artırmaq və təhlükəsizlik vərdişlərini möhkəmləndirməkdir.

### Qeyri-neft ixracı artıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hesabatına görə, bu ilin 9 ayında Azərbaycanın qeyri-neft ixracı 7,7 faiz artaraq 2,6 milyard dollara çatıb. Ən çox artım yeyinti və aqrar məhsullarda qeydə alınıb. İxracın artımı iqtisadiyyatın şaxələndirilməsini göstərir.

### Qatara daş atanlar müəyyən olunub

Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində Bakı–Sumqayıt sürət qatarına daş atan 2010-cu il təvəllüdlü iki yeniyetmə polis tərəfindən müəyyən edilib. Onlar valideynləri ilə birlikdə polis şöbəsinə dəvət olunublar. Yeniyetmələrlə profilaktik söhbət aparılıb və qanunvericiliyə uyğun tədbir görülüb.

### Astarada “Təmiz hava” aksiyası

Astara DYP və Regional Ekologiya İdarəsi əməkdaşları “Təmiz hava” aksiyası çərçivəsində birgə tədbir keçirib. Rayonda avtomobillərin texniki vəziyyəti yoxlanılıb, normadan artıq tullantı buraxan nəqliyyat vasitələrinin sürücülərinə inzibati tədbir görülüb, maarifləndirici söhbətlər aparılıb.

### Sürücülərə xəbərdarlıq edildi

DİN Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi sürücüləri diqqətli olmağa çağırıb. Qurum bildirib ki, sükan arxasında telefondan istifadə və diqqətsizlik yol-nəqliyyat hadisələrinin əsas səbəblərindəndir. Mərkəz sürücüləri yalnız yola diqqət etməyə və məsuliyyətli olmağa səsləyib.

### Metrodakı ödəniş yeniliyi

Bakı Metropolitenində sərnişinlər artıq gedişhaqlarını NFC-ni dəstəkləyən bütün yerli bank kartları, eləcə də "Apple Pay" və "Google Pay" ilə ödəyə biləcəklər. Bu barədə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətindən bildirilib ki, paralel olaraq "BakıKart", "BirBank" və "M10"la ödəniş qüvvədə saxlanılır. Yenilik "bənövşəyi xətti"n stansiyalarında uğurla sınaqdan keçirilib. NFC-dən istifadə zamanı bank kartlarında balans olmasa belə, sərnişinlərə birdəfəlik keçid imkanı veriləcək. Lakin balans artırılmasa, kartla ödəniş avtomatik bloklanacaq.

# Nazir vətəndaşları dinləyib

## Müraciətlərin həlli istiqamətində ciddi tapşırıqlar verilib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 31-də və noyabrın 1-də Kürdəmir Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Kürdəmir rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra rayon polis şöbəsinin inzibati binasında Kürdəmir, Ucar, Hacıqabul, Göyçay, Ağdaş, Ağsu, Şirvan və digər bölgələrdən gələn 315 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.















Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədi ilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə ciddi tapşırıqlar verib.

Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 14 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 163 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Zəfərin 5 ili

## Vətən müharibəsindəki qələbəmiz həmrəyliyimizin təntənəsidir

**Daxili İşlər Nazirliyində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.**

Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.





Tədbirdə çıxış edən daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbənin xalqımızın şanlı tarixində əbədi iz qoyan, əsrlərlə yaddaşlardan silinməyəcək bir hadisə olduğunu vurğulayıb. O, torpaqlarımızın işğaldan azad olunmasının, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasının Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılmış ən parlaq səhifələrdən olduğunu, bu qələbənin qazanılmasında təkcə hərbi gücün deyil, xalq-ordu-dövlət birliyinin və milli iradənin vəhdətinin mühüm rol oynadığını qeyd edib.

Tədbir iştirakçılarına daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazovun Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə Daxili İşlər Nazirliyinin şəxsi heyətinə ünvanladığı təbriki çatdırılıb.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlar Komandanının müavini - Şəxsi Heyət üzrə İdarənin rəisi general-mayor İnqilab Muradov ölkə Prezidentinin davamlı səyləri ilə yaradılan güclü hərbi potensialın qarşımızda duran müqəddəs missiyanın layiqincə yerinə yetirilməsində öz töhfəsini verdiyini qeyd edib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının Vətən müharibəsində misilsiz şücaət və hünər göstərərək Ali Baş Komandanın etimadını və xalqımızın inamını doğrultduğu, torpaqlarımızın işğaldan azad olunması zamanı şəxsi heyətdən 66 nəfərin şəhidlik zirvəsinə ucaldığı, 346 nəfərin yaralandığı, ölkə rəhbəri tərəfindən 4 hərbi qulluqçunun “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görüldüyü, yüzlərlə hərbi qulluqçumuzun isə orden və medallarla təltif olunduğu bildirilib.

Daha sonra çıxış edənlər Vətən müharibəsində qazanılan qələbədə və lokal xarakterli antiterror tədbirlərində Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının göstərdiyi şücaət və qəhrəmanlıqlarını özündə əks etdirən “Zəfər meydanı” sənədli filmi nümayiş etdirilib.

Tədbirin sonunda Vətən müharibəsində igid oğullarımızın qəhrəmanlıqlarını özündə əks etdirən “Zəfər meydanı” sənədli filmi nümayiş etdirilib.

# Şuşadan haqqın dərgahına...

## Ömrü də, ölümü də tarixə dönən hərbi qulluqçumuz

**Vətən torpaqlarını düşmən tapdağından qarış-qarış azad etmiş igid oğullarımızın, şəhidlərimizin Vətənə məhəbbəti bu gün hər birimizə örnəkdir. Adı tarixdə yaşayacaq hərbi qulluqçularımızdan, Vətən fədailərindən biri də çavuş Ağayev Ramiz İmamverdi oğludur.**

O, 1993-cü il iyulun 25-də Bakı şəhərində doğulub. Ramiz şəhid Seymur Məmmədov adına 301 saylı tam orta məktəbin məzunu olub. 2011-ci ilin iyul ayında Ramiz Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətə həvəslə yollanıb və "N" saylı hərbi hissədə hərbi and içib. Sonra digər bir "N" saylı hərbi hissəyə göndərilərək avtomobil və təminat bölüklərində xidmət keçib.

2013-cü ilin yanvar ayında Ramiz öz arzusu ilə Daxili Qoşunların tərkibində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib, həyatını hərbçi peşəsinə bağlayıb. Xidmət etdiyi hərbi hissələrdə təyin edildiyi vəzifələrdə özünü doğruldub, müsbət xarakterizə olunub. Vətən müharibəsi başlayanadək artıq təcrübəli və peşəkar hərbi qulluqçu kimi formalaşıb.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı başlayan Vətən müharibəsi zamanı ön cəbhəyə ilk göndərilən hərbi qulluqçularımızın arasında Ramiz də vardı. Döyüşlərə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş şəhid mayor Şixamir Qaflanovun rəhbərliyi altında qatılıb.

Vətən müharibəsi iştirakçısı kapitan Əhməd İsmayılov:

"Ramizi 2020-ci ilin fevral ayından tanıyıram. İntizamlı, bacarıqlı və əqidəsinə sadiq hərbi qulluqçu olub. Müharibədən əvvəl xüsusi təyinatlıların taktiki təlimlərində iştirak edərək öz peşə məharətini təkmilləşdirib. Vətən müharibəsində Ramiz qətiyyət göstərib, avtomat silahı ilə işğalçıların atəş nöqtələrini susdurmağa can atıb. Sentyabrın 29-da Füzuli rayonunun Qaraxanbəyli kəndində döyüş zamanı o, sol çiyin və boğaz nahiyələrindən yaralanıb. Dəlib-keçən güllə yaraları səbəbindən ön cəbhədən təxliyyə edilib"...



*Ramiz Ağayev*

Müalicə alması üçün Şirvan Şəhər Mərkəzi Xəstəxanasına yerləşdirilən hərbi qulluqçumuz tam sağalmasını gözləmədən xəstəxananı tərk edərək oktyabrın 27-də silahdaşlarının yanına qayıdıb.

Vətən müharibəsi iştirakçısı baş çavuş Elçin Mecidov: "Ramiz ilk döyüşlərin birində yaralansa da, o, yenidən döyüş meydanına atılıb".

Şəhriyar adlı döyüşçü də xatirələrini bölüşüb: "Dəstə komandiri olmuş mayor Şixamir Qaflanov öz qəhrəmanlığı ilə son nəfəsinədək xüsusi təyinatlıları qələbəyə ruhlandırıb. Ramizlə eyni dəstədə xidmət edib, Vətən müharibəsində iştirak etmişəm. Ramiz yaralandıqdan sonra oktyabrın 27-dək xəstəxanada olub. Həmin tarixdə isə Xocavənd rayonunun Ağbulaq kəndində döyüş yolunu davam etdirib. Noyabrın 5-dən Şuşa ətrafında döyüşlərə qatılıb. Noyabrın 8-də şəhərin işğaldan azad edilməsi hər bir döyüşçüdə zəfər coşqusu yaradıb. Noyabrın 9-da Şuşa qalası yaxınlığındakı mövqedə yerləşən Ramiz düşmən minaatanından atılan mərminin partlaması nəticəsində ağır yaralanaraq şəhadətə ucalıb".

Şəhidin cənazəsi noyabrın 13-də ailəsinin yaşadığı evə gətirilib, noyabrın 14-də Hərbi Memorial Məzarlıqda torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 24, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş R.Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", həmçinin Azərbaycan Respublikası Müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli müvafiq əmrinə əsasən, "Şücaətə görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov*

# Zəfərə aparan yol

## Tarixi qələbəmiz Azərbaycan gəncliyinin fədakarlıq örnəyidir

DİN-in Polis Akademiyasında 8 Noyabr – Zəfər Gününə həsr olunmuş "Zəfərə aparan yol - Qarabağ Salnaməsi" mövzusunda konfrans keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisi, Xəzər Rayon İcra Hakimiyyəti, Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi, Bakı şəhəri Xəzər Rayon Məhkəməsi, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, DİN-in Şəxsi Heyətlə İş İdarəsi, DİN-in Mətbuat Xidməti, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik, Dövlət Gömrük Komitəsinin, Milli Aviasiya, Fövqəladə Hallar Nazirliyinin akademiyalarının, Bakı Dövlət Universiteti, ADA Universiteti, DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutu, Müdafiə Nazirliyinin Heydər Əliyev adına Hərbi İnstitutunun nümayəndələri, kursant və tələbələri, Vətən müharibəsinin qəhrəmanları və iştirakçıları qonaq qismində iştirak ediblər.



Akademiyada ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulduqdan sonra konfrans zalında ümummilli liderin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, videoçarx nümayiş etdirilib.

Konfransı giriş sözü ilə açan Polis Akademiyasının rəisi polis general-mayoru Canpolad Daanov tədbir iştirakçılarını salamlayaraq dövlətimizin gələcək inkişafında müstəsna rol oynayan Zəfər Gününün tarixi əhəmiyyətindən danışıb, gənc nəslin dövlətçilik ideyalarına sadiq və vətənpərvər ruhda tərbiyə almasının önəmini diqqətə çatdırıb.

Çıxışlarda Zəfər Gününün xalqımızın qəhrəmanlıq salnaməsində mühüm yer tutduğu, bu günün milli qürur, vətənə sevgi və şəhidlərimizin xatirəsinə ehtiramın təcəssümü olduğu vurğulanıb.

Tədbirin sonunda Zəfər gününə həsr olunmuş "Qarabağ Zəfəri: Xalqın qəhrəmanlıq salnaməsi" adlı yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb.

# Bəşəri problemə dair növbəti tədbir

## İnsan alverinə qarşı mübarizədə maarifləndirmə əsas şərtlərdəndir

Bu günlərdə insan alverinə qarşı mübarizəyə dair maarifləndirmə tədbirləri çərçivəsində turizm sənayesi nümayəndələri üçün təlim təşkil olunub.

Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə keçirilən təlimdə Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin şöbə müdiri Araz Babayev, İnsan Alveri ilə Mübarizə üzrə QHT Koalisiyasının sədri Mehriban Zeynalova və koalisiyanın üzvü olan Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyinin təlimçisi Günel Ələkbərova iştirak ediblər.

Təlimin məqsədi turizm sahəsində insan alveri üzrə risklər barədə məlumatlılığı artırmaq, turizm sənayesini baş verə biləcək mümkün hallarda qabaqlayıcı tədbirlər və düzgün davranış mexanizmləri üzrə maarifləndirməkdir.





Təlim zamanı iştirakçılara insan alverinin mahiyyəti, qanunvericilikdə nəzərdə tutulan istismar növləri, insan alverində qurbanların müəyyən edilməsi istiqamətində əsas hərəkətlər, vasitələr və məqsədlər barədə ətraflı məlumat verilib. Həmçinin insan alveri qurbanlarının fiziki, sosial və davranış göstəriciləri, cinsi istismar, uşaq alveri və istismarı kimi mövzular müzakirə olunub. İnteraktiv formatda keçirilən təlimdə iştirakçılar mövzu ilə bağlı suallarını səsləndirib və mütəxəssislərlə fikir mübadiləsi aparıblar.

# Zəfər ağacları əkdilər

## Yaşıl Azərbaycan üçün həmrəy oldular

Polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Sabunçu rayonu ərazisində növbəti ağacəkmə kampaniyası keçirilib.



Əvvəlcə Ramana qəsəbəsində seçilmiş ərazidə abadlıq və təmizləmə işləri aparılıb. Sonra polis əməkdaşları və hərbi qulluqçular yerli iqlimə uyğunlaşdırılmış şam və zeytun tinglərini əkib, ağaclara aqrotexniki qaydada qulluq göstərib, suvarma işləri görüblər. Tinglərin küləkdən qorunması və normal böyüməsi üçün qoruyucu dirəklər basdırılıb.



# Ötən ayın statistikası

## DİN-in sosial şəbəkələrdəki səhifələrinə 3884 müraciət daxil olub

Oktyabr ayının 1-dən 31-dək DİN-in sosial şəbəkələrdəki səhifələrinin mesaj bölməsinə 3884 müraciət daxil olub. Hər biri cavablandırılan müraciətlərin 993-ü (323-ü təşəkkür məktubu) qeydiyyata alınmış və aidiyyəti üzrə yönləndirilməsi üçün DİN-in Katibliyinə təqdim edilib.

Onlardan 912-si cinayətkarlıqla mübarizə, 1744-ü qanunvericilik və digər məsələlərə dair, 536-sı əməkdaşların fəaliyyətinin qanunauyğunluğu, 316-sı Dövlət Yol Polisinin fəaliyyəti, 119-u ictimai təhlükəsizlik, 188-i vakansiyalar və xidmətə qəbul, 69-u istintaq və təhqiqat qurumlarının fəaliyyəti ilə əlaqəli olub.

# "Zərərli vərdişlərə yox deyək"

## Polis əməkdaşları şagirdlərə çağırış edib

Səbail rayonunun 132-134 nömrəli tam orta məktəbində "Narkotik əsrin bəlasıdır, zərərli vərdişlərə yox deyək" mövzusunda maarifləndirici tədbir təşkil olunub. Tədbirdə şagird və müəllim kollektivi ilə yanaşı, polis əməkdaşları, digər dövlət qurumlarının nümayəndələri də iştirak ediblər.



Səbail Rayon Polis İdarəsinin rəisi polis polkovniki Hikmət Qasımov çıxış edərək həm rayon üzrə, həm də ölkə miqyasında narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə tədbirləri barədə məlumat verib. O bildirib ki, Səbail rayonu ərazisində bu istiqamətdə mübarizə tədbirləri gücləndirilib, narkotik vasitələrin qanunsuz satışı və saxlanması ilə bağlı onlarla cinayət faktı aşkarlanıb və müvafiq hüquqi qiymət verilib. İdarə rəisi vurğulayıb ki, təkcə cinayətkar qrupların fəaliyyətinin qarşısının alınması ilə kifayətlənmək olmaz, əsas məqsəd gənclərin bu təhlükə ilə tanış olmadan ondan uzaq durmasını təmin etməkdir. Bu məqsədlə məktəblərdə, universitetlərdə və ictimai məkanlarda profilaktik görüşlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəis müavini polis polkovniki Hafiz Təmirov isə narkomaniyanın insan həyatına, ailə münasibətlərinə və cəmiyyətin təhlükəsizliyinə ağır təsirlərindən danışıb. Narkotikdən asılı olan şəxsin dəyərlərinin və prioritetlərinin köklü şəkildə dəyişdiyini deyən H.Təmirov narkomanın heç vaxt vətəni qorumaq, ailəsini düşünmək, faydalı olmaq istəmədiyini vurğulayıb. Onun yalnız bir hədəfi var, bədənində yaranan iztirabı azaltmaq üçün narkotik tapmaq. Bu məqsədlə bir çox hallarda müxtəlif cinayətlərə əl atır və məsuliyyətini daha da ağırlaşdırır. Bu gün cəmiyyətdə rast gəldiyimiz bir çox hüquqpozma və sosial fəsadlar məhz narkomaniyanın nəticəsidir. Bizim gənclər üçün örnək olan insanlar var, Vətən üçün canından keçən qəhrəmanlar var. Narkotik isə insanı həmin dəyərlərdən ayırır və mənəvi boşluğa aparır.

Digər çıxış edənlər də mövzu ətrafında fikirlərini bildiriblər, daha sonra şagirdlərin sualları cavablandırılıb.

Tədbirin sonunda Daxili İşlər Nazirliyi tərəfindən hazırlanan "Qorxu bilməyən qəhrəmanlardan olmaq üçün polisdə xidmətə başla", eyni zamanda Polis Akademiyasında kursantlar üçün yaradılmış müasir meyarlara cavab verən tədris prosesi ilə bağlı videoçarx nümayiş etdirilib.

# Qəhrəmanlıq da yaşayır, qəhrəmanlar da...

## Vətən müharibəsinin xronologiyasından

*(Əvvəli ötən sayımızda)*

Qələbəmizdən, torpaqlarımızın işğaldan azad olunmasından, daha doğrusu 2020-ci ilin sentyabrından beş il ötsə də yaddaşımızda, ruhumuzda özünə əbədi yer eləyən o hiss hələ də bizi tərk etməyib. O hissə qisas adı da verə bilərik, yurda dönüş istəyi də, bir qərinəyə yaxın illərin qələbə ilə sonlanmış məntiqi sonluğu da demək olar.

Bu gün işğaldan azad olunmuş yurdlara əbədi bir köç başlayıb. Bu köç təhlükəsiz, top-tüfəng səsi gəlməyən , Azərbaycan əsgərinin, Azərbaycan Polisinin gecə-gündüz keşik çəkdiyi torpaqlarda gələcək xoş günlərin, uğurların təməlini qoymaq üçün 30 ildən sonra yola çıxıb. Bu köçlərin, bu qayıdışın bir qarantı var: Azərbaycan dövləti, Azərbaycan xalqı və Dəmir yumruq.

Vətən müharibəsində Qələbəmizə aparan hər günün, hər ayın öz yeri var. Oktyabr ayı da müharibədə mühüm hərbi nailiyyətlərlə yadda qalıb.

Oktyabrın 20-də Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Füzuli rayonu istiqamətində əks-hücuma keçən Ermənistan Ordusunun bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində məhv edilmişdir. Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olmuşdur. Alay komandirinin müavini Hovik



Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri kapitan Vahab Asetryan da zərərsizləşdirilmişdir. 5-ci motoatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Yaralılar arasında bölük komandiri Norik Ağakelyanın da olduğu bildirilir. 18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət "Legion" dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina etmişdir.

246-cı alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Qazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilmişdir.

Saat 13 radələrində Ermənistan silahlı qüvvələri Tərtər və Ağdam rayonlarının ərazilərini atəşə tutmuşdur. Prezident İlham Əliyev xalqa müraciətində Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndlərini, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri, Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı kəndləri, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Birinci Muğanlı və Zəngilan şəhərinin işğaldan tam azad edildiyini açıqlamışdır. 27 sentyabr tarixindən bu günə qədər Ermənistan ordusuna məxsus 241 tank, 50 ədəd piyadanın döyüş maşını, 17 ədəd özüyeriyən artilleriya qurğusu, 198 ədəd müxtəlif çaplı toplar, 58 minaatan, 2 ədəd "Uraqan" sistemi, 1 ədəd "TOS 1a" odsaçan sursatı, 53 ədəd tank əleyhinə raket sistemləri, 2 ədəd "Elbrus" əməliyyat-taktiki raket kompeksi, 1 ədəd "Toçka-U", 4 ədəd "S-300" kompleksi, 40 ədəd "Osa" zenit raket kompeksi, 3 ədəd "Tor" zenit-raket kompleksi, 5 ədəd "Kruq" və "Kub" zenit raket kompleksləri, 8 ədəd radioelektron mübarizə sistemləri, 198 ədəd yük avtobili məhv edilmişdir. 39 tank, 24 ədəd piyadanın döyüş maşını, 12 minaatan, 25 qumbaraatan, 102 ədəd yük avtomobili isə qənimət kimi ələ keçirilmişdir.

Saat 16 radələrində işğaldan azad edilmiş Zəngilan şəhərində Azərbaycan bayrağının dalğalandığını göstərən videogörüntü yayımlanmışdır. Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində ordumuzun əks-hücum əməliyyatları nəticəsində Ermənistan Silahlı Qüvvələrinin daha iki polkovniki — hərbi hissə komandirinin müavini olan Aşot Kazaryan və qərargah rəisinin müavini Geqam Qabrielyan məhv edilmişdir. Saat 20 radələrində Azərbaycan Müdafiə Nazirliyi Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bölmələrinin məhv edildiyini göstərən videogörüntü yayımlamışdır.

*(Ardı gələn sayımızda)*

# Tarixin axarını dəyişən agent

## İnsanlıq üçün uydurulan yalanlar onu həbsdən azad etdi

İkinci Dünya Müharibəsi başlayanda Juan Pujol Garcia adlı ispaniyalı bir kişi müharibəyə fiziki olaraq yox, fərqli şəkildə qatılmaq istəyirdi. Onun nə hərbi təhsili vardı, nə də casusluq təcrübəsi. Amma faşizmə qarşı güclü nifrəti vardı. Onun arzusu müharibəni dayandırmaq, nəyinsə dəyişməsinə səbəb olmaq idi. Pujol qərara gəldi ki, ən yaxşı yol almanlara yalan məlumat ötürməkdir. O, əvvəlcə Britaniyaya müraciət etsə də, ciddiyə alınmadı. Bu zaman ideyasını Almaniyaya təqdim etdi və onların diqqətini çəkdi. Beləliklə, heç bir real məlumatı olmayan, amma uydurma hekayələri ilə almanları inandıra biləcək bir "casus" kimi fəaliyyətə başladı.

### O, almanları necə inandırdı?

Pujol Londona getmədən belə, almanlara guya İngiltərədə yaşadığını və onlar üçün mühüm məlumatlar topladığını deyirdi. Əslində isə o, Portuqaliyada oturub kitabxanalardan, qəzetlərdən topladığı məlumatlarla saxta hesabatlar yazırdı. O, xəyalında 27 casusdan ibarət bir şəbəkə qurdu və hər biri üçün ad, peşə, ailə həyatı, yazışmalar uydurdu. Hətta bəzi "agentlər" guya müharibə zamanı həlak olurdu və onların "dul arvadları" Almaniyadan yardım istəyirdi. Almanlar bu hekayələri tam inandırıcı sayır, Pujola böyük pullar ötürürdülər.



Onun saxta məlumatları o qədər "dəqiq" görünürdü ki, onu şübhəsiz mənbə hesab edirdilər.

### Britaniya və "Agent Garbo"

Bir müddət sonra Britaniya kəşfiyyatı MI5 də Pujolun nə qədər böyük təsir gücünə malik olduğunu gördü. Onu rəsmi şəkildə öz sıralarına qəbul etdilər və kod ad verdilər: Agent Garbo. Bu ad onu Hollivud ulduzu Greta Garboya bənzətdikləri üçün seçilmişdi. Necə ki, Garbo aktyorluqda dahi sayılırdı, Pujol da casus oyununda dahiyə çevrilmişdi. MI5 onun yalan məlumatlarını diqqətlə yönləndirdi və bundan strateji üstünlüklə istifadə etdi. Garbo artıq iki tərəfə casusluq edən, amma əslində müttəfiqlərə xidmət edən bir "cüt agent" idi.

### Normandiya əməliyyatının gizli qəhrəmanı

1944-cü ildə müttəfiqlər Fransa sahillərinə - Normandiyaya qoşun çıxarmağı planlayırdı. Əgər almanlar bu hücumu əvvəlcədən dəqiq bilsəydilər, minlərlə əsgər həlak ola bilərdi. Burada agent Garbonun rolu ön plana çıxdı. O, almanlara yanlış koordinatlar ötürdü və onları inandırdı ki, əsas hücum Pas-de-Calais bölgəsində olacaq. Almanlar ordularını həmin istiqamətdə saxladılar, Normandiyada isə müqavimət zəif oldu. Tarixçilərin çoxu bu çıxarmanın uğurunu məhz Garbonun yaydığı saxta məlumatlara bağlayır. Maraqlıdır ki, çıxarmadan sonra belə Garbo almanları inandıra bildi ki, "əsas hücum hələ qabaqdadır".

Hər iki tərəfdən mükafat alan "yalançı" Garbo müharibədən sonra həm Almaniya həm də Britaniya tərəfindən mükafatlandırıldı. Almanlar ona İkinci Dərəcəli Dəmir Xaç ordeni verdilər. Bu, onların ən yüksək mükafatlarından biri idi. Onlar hələ də onun "sadiq agent" olduğuna inanırdılar. Britaniya isə ona orden və təqaüd verdi. Bu, tarixdə nadir hadisədir ki, bir insan həm düşmən, həm də müttəfiq tərəfindən təltif olunurdu və heç kim əslində onun nə etdiyini anlamırdı. Amma bu qələbənin ağırlığı Garbo üçün asan deyildi. O, bu qədər yalan danışdıqdan sonra sakit yaşamaq istəyirdi.

### Öz ölümünü uydurub yoxa çıxdı

Müharibədən sonra Pujol özünü "öldü" kimi göstərdi. Venesuelaya köçərək yeni adla sadə həyat qurdu. Onu axtaran çox oldu, amma heç kim tapa bilmədi. 1980-ci illərdə bir ingilis jurnalist onu təsadüfən tapdı. Həmin vaxt dünya öyrəndi ki, bu sakit görünən adam əslində İkinci Dünya Müharibəsinin gedişini dəyişmiş bir "usta yalançı"dır. Garbonun həyatı film ssenarilərini xatırladır, amma bu, reallıq idi. Onun sayəsində minlərlə insan həyatda qaldı, müharibənin axını dəyişdi. Tarixin ən hiyləgər casusu mühakimə olunmadı, çünki onun yalanları insanlıq üçün idi.

*Aytən Tahirova*
*polis kapitanı*

# Komandamızın uğuru

## Futbolçularımız qələbəyə doğru addımlayır

Oktyabrın 28-dən mini futbol üzrə ölkə çempionatına start verilib. Bakı Tennis



Akademiyasının meydançasında keçirilən yarışda 16 komanda gücünü sınayır. Çempioanata qatılan DİN-in komandasının ilk rəqibi "Bakı 145" komandası olub. Polislər yüksək əzm və peşəkarlıq göstərərək rəqib komandanın qapısından 5 top keçiriblər. "Bakı 145" yalnız 3 topun əvəzini çıxa bilib. Komandamız hazırda beşinci yerdə qərarlaşıb.

# Üçqat dünya çempionu

## Polis polkovniki qızıl medal qazandı

Zəfərimizin beşinci ildönümü ərəfəsində polis idmançılarımızdan daha bir



xoş xəbər eşitdik.

Belə ki, dəfələrlə dünya və Avropa çempionatlarının qalibi, olimpiya oyunlarının bürünc medalının sahibi, DİN idman Cəmiyyətinin sədri polis polkovniki Mövlud Mirəliyev Fransada usta cüdoçular arasında keçirilən dünya çempionatında qızıl medal qazanıb. Həmkarımız çıxdığı ilk görüşlərdə Braziliya, Almanya, İspaniya və Gürcüstan idmançılarına məğlubiyyət acısını yaşadıb.

Finalda da Portuqaliya idmançısı azərbaycanlı gücünün qarşısında duruş gətirə bilməyib.

Polis polkovniki Mövlud Mirəliyev 3 qat dünya çempionu olmaqla adını cüdo tarixinə yazdırıb.

# Zəfər Gününə həsr olunmuşdu

## İdmançı polislər yarışdılar

Bu günlərdə DİN-in İdman Cəmiyyətində daxili işlər orqanları əməkdaşları arasında 8 Noyabr – Zəfər Gününə həsr olunmuş cüdo idman növü üzrə yarış keçirilib.



Yarışda 11 komandanı 88 idmançı təmsil edib. Yarışın qalibi Əlahiddə Çevik Polis Alayının komandası olub. İkinci yeri Bakı Şəhər Baş Polis İdarəsinin, üçüncü yeri isə DİN Daxili Qoşunların komandası tutub.

Yarışda qalib olmuş idmançılara medal və qiymətli hədiyyələr təqdim edilib. Eyni zamanda qalib idmançılar DİN-in milli komandasının tərkibinə daxil olaraq güc strukturları arasında keçiriləcək çempionatda iştirak hüququ əldə ediblər.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik